

# Rioya qalibiyyət əzmi ilə...

## Prezident İlham ƏLİYEV: "Əminəm ki, həm olimpiyaçılar, həm paralimpiyaçılar ölkəmizi ləyaqətlə təmsil edəcəklər və vətənə böyük qələbə ilə qayıdacaqlar"

Bütün dünyanın böyük maraqla gözlədiyi sayca XXXI Yay Olimpiya Oyunlarının başlamasına sayılı günlər qalıb. Planetin bir nömrəli idman yarışından hər bir dövlət kənarda qalmamağa, olimpiadada layiqincə təmsil olunmağa çalışır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, olimpiya oyunlarında göstərilən nəticə yalnız dövlətin idman həyatının deyil, onun iqtisadi potensialının, ictimai, sosial-mədəni həyatının göstəricisidir. Olimpiya oyunlarında qazanılan yüksək nəticələr ölkənin beynəlxalq aləmdə imicini yüksəltməklə yanaşı, onun imkanlarını nümayiş etdirir.

Fərəhli haldır ki, bundan əvvəlki olimpiya oyunlarında yüksək nəticələr əldə edən idmançılarımız Rio Olimpiadasına 57 lisenziya qazanıblar. İnam var ki, atletlərimiz beynəlxalq həyatın ən möhtəşəm və mötəbər bir tədbirindən vətənə medallarla qayıdaraq növbəti dəfə ölkəmizin idman adını yüksəkdə tutacaqlar.

Ölkəmizdə Olimpiya hərəkatının və bütövlükdə idmanın inkişafında yeni mərhələnin əsası 1997-ci ildə cənab İlham Əliyevin MOK-un prezidenti seçilməsi ilə qoyulub. İlk növbədə Olimpiya hərəkatının real vəziyyəti öyrənilib, mövcud problemlər aşkara çıxarılıb. İşə əngəl törədən amillər müəyyənləşdirilib və onları aradan qaldırmaq üçün təxirəsalınmaz tədbirlərin görülməsinə başlanılıb. Beləliklə, cənab İlham Əliyevin MOK-un prezidenti seçilməsindən sonra ölkədə bədən tərbiyəsi və idman geniş vüsət alıb, respublikamız beynəlxalq Olimpiya hərəkatına qoşulub, bu sahədə sistemli işlər görülüb.

İyulun 18-də Rio-de-Janeyroda keçiriləcək XXXI Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin rəsmi yolasalma mərasimində çıxış edən Prezident İlham Əliyev idmanımızın tarixinə qısa nəzər salaraq görülən işlərdən söz açıb, onların mahiyyətindən danışıb: *"Azərbaycan idman dövlətidir. Bunu bütün dünya, idman ictimaiyyəti qəbul edir, bilir. Azərbaycanda idmanla, Olimpiya hərəkatı ilə bağlı məqsədyönlü siyasət aparılır. Məhz bu siyasət nəticəsində biz bu gün bu uğurlar haqqında danışa bilərik. Düşünülmüş siyasət, məqsədyönlü işlər idmanı Azərbaycanda, cəmiyyətdə önəmli bir ictimai amilə çevirmişdir. Bu gün idmançılara cəmiyyətdə çox böyük hörmət var. İdmançılar cəmiyyətdə layiqli yer tutublar. İdmanla məşğul olmaq istəyənlərin sayı getdikcə artır. Bunun əsas səbəbi idmançılarımızın uğurlarıdır və idmançılara göstərilən dövlət qayğısıdır".*

1997-ci ildə İlham Əliyevin Milli Olimpiya Komitəsinə prezident seçilməsindən sonra bu qurumun fəaliyyətindəki canlanma təkcə olimpizmin təbliği, idmançılarımızın olimpiadalarda iştirakını təmin etməklə bitməyib, həm də bu sahədə maddi-texniki bazanın gücləndirilməsinə nail olunub. Ölkədə idmanın sürətli inkişafı və onun gələcək imkanlarını genişləndirmək məqsədilə mövcud maddi-texniki bazanın vəziyyəti xeyli yaxşılaşdırılıb. Paytaxtdan başlayan bu quruculuq tədricən bölgələrə doğru istiqamətlənib. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bölgələrdə olimpiya idman komplekslərinin tikilib istifadəyə verilməsi həmin yerlərdə idman hərəkatının tərəqqisi üçün önəmli rol oynayıb.

Prezident İlham Əliyev bununla bağlı çıxışında vurğulayıb ki, Azərbaycanda idman infrastrukturu yaradılır və bu, bir sıra ölkələrə nümunə kimi göstərilir. *"Son illər ərzində bölgələrdə 40-dan çox Olimpiya İdman Mərkəzi yaradılmışdır, tikilmişdir. Bakıda isə idman infrastrukturu ən yüksək səviyyədədir. Təkcə son bir-iki il ərzində bir neçə gözəl, möhtəşəm idman obyekti istifadəyə verilmişdir - Milli Gimnastika Arenası, Bakı Olimpiya Stadionu, Beynəlxalq Atıcılıq Mərkəzi, Su İdmanı Sarayı. Bu idman obyektləri eyni zamanda gözəl memarlıq əsərləridir. Bu binalar, bu qurğular Bakını daha da gözəlləşdirir... İdman infrastrukturunun xüsusilə regionlarda yaradılması imkan verir ki, bölgələrdə yaşayan uşaqlar, gənclər idmanla məşğul olsunlar. Mən bütün regional olimpiya mərkəzlərinin açılışlarında şəxsən iştirak etmişəm və demişəm, əsas vəzifə ondan ibarətdir ki, biz idmanın kütləviliyini təmin edək. Əlbəttə, bizə qələbələr, çempionlar lazımdır və bu, bizdə var. Amma eyni zamanda bizə sağlam gənclər, sağlam millət lazımdır".*

**Ardı 5-ci səh.**

# Rioya qalibiyyət əzmi ilə...

***Əvvəli 1-ci səh.***

İdman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir olimpiya komplekslərinin və digər idman qurğularının inşası nəticəsində ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkan, dünyanın idman mərkəzlərindən biri olub. Hazırda Azərbaycan təkcə müəyyən kateqoriyalı beynəlxalq yarışlara deyil, eyni zamanda qitə və dünya çempionatlarına da evsahibliyi edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu, turnirlərdə qazanılmış hər bir uğur sadəcə olaraq hansısa bir qələbə deyildir: *“Bu gün mən deyəndə ki, Azərbaycan idman dövlətidir, bax, bunu bu səbəblərə görə deyirəm. Birincisi, bizdə ən müasir idman infrastrukturu yaradılıb və bu infrastruktur imkan verir ki, biz bütün ən yüksək səviyyəli oyunları keçirək. Avropa Oyunlarının Azərbaycanda keçirilməsi bunun əyani sübutudur. İkincisi, Azərbaycan idmançıları müxtəlif yarışlarda, Olimpiya Oyunlarında, dünya çempionatlarında, Avropa çempionatlarında, yeniyetmələrin Olimpiya Oyunlarında həmişə yüksək pillələrdədir. İdmanın inkişafı və kütləviliyi ilə bağlı da çox düşünülmüş, ardıcıl siyasət aparılır və bu siyasət özünü artıq dəfələrlə göstərmişdir. Ona görə əminəm ki, gələcək illərdə də beynəlxalq idman qurumları Azərbaycana həmişə böyük hörmətlə yanaşacaqlar. Biz də çalışacağıq ki, Azərbaycan idman dövləti kimi gələcəkdə də özünü göstərsin və öz imkanlarını ortaya qoysun”.*

Artıq bir neçə gündən sonra XXXI Rio Yay Olimpiya Oyunları start götürür. İdmançılarımız Sidney, Afina, Pekin və Londonda əldə edilmiş nəticələri təkrar etmək, tutduqları mövqeyi qoruyub saxlamaq və yaxşılaşdırmaq uğrunda mübarizə aparmalıdırlar. Müxtəlif irimiqyaslı yarışlarda idmançılarımızın son dövrlərdəki qələbələri və yeni gənc idmançılar nəslinin aşkar olunan potensial imkanları Azərbaycan Olimpiya komandasının Rioda da yüksək nəticələr göstərərək əvvəlki mövqelərini daha da yaxşılaşdıracağına inam yaradır. Bütün bu nailiyyətlər Azərbaycanda gedən hərtərəfli, sürətli inkişafın məntiqi nəticəsi kimi dəyərləndirilməlidir. Prezident İlham Əliyevin də vurğuladığı kimi, Rio Olimpiadasında idmançılarımızın bir-birindən möhtəşəm qələbələrinin şahidi olacağıq: *“Əziz idmançılar, siz bir neçə gündən sonra yola düşəcəksiniz. Hər bir idman yarışı bir sınaqdır. İdman yarışında qələbə də olur, məğlubiyyət də. Heç kim məğlubiyyətdən sığortalanmayıb. Əsas odur, həmişə yadda saxlayasınız ki, bütün Azərbaycan xalqı sizin qələbələrinizi gözləyir. Sizə uğurlar arzulayır və əmindir ki, siz vətəni ləyaqətlə təmsil edəcəksiniz, Azərbaycana böyük qələbə ilə qayıdacaqsınız”.*

İndi Olimpiya yarışlarında iştirak edəcək idmançılarımızın qarşısında bir vəzifə durur. Yarışlarda iradə, qətiyyət, məharət, ustalıq nümayiş etdirib, vətənə Olimpiya çempionu, Olimpiya qalibi kimi qayıtmaq.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***